





# 80 yaşın işığında...

**Ələşrəf Niftiyev qabaqcıl əmək veteranı, nüfuzlu ağsaqqal, yaradıcı ziyalı, söz, qələm sahibi kimi təkcə cənub bölgəsində deyil, respublikamızda da tanınır. O, 1945-ci ildə Masallı şəhərində İkinci Dünya müharibəsinin əlili ailəsində dünyaya göz açıb. İxtisasca rus dili müəllimidir. Uzun illər rayonun məktəblərində müəllim işləyib. 1968-1974-cü illərdə Masallı rayon komsomol komitəsinin şöbə müdiri və birinci katib vəzifələrində çalışıb.**



1974-cü ildə Masallı rayon partiya komitəsinin təşkilat-partiya işi şöbəsinin müdiri vəzifəsində çalışıb. Rayonun "Çağırış" qəzetində ədəbi işçi, Masallı şəhərindəki 2 saylı tam orta məktəbdə müəllim işləyib.

1993-cü ilin noyabr ayından 2009-cu ilin iyununa kimi Masallı Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini vəzifəsində çalışıb. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə uzun müddət dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiyinə görə III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı, "Fəxri ağsaqqal" döş nişanı ilə təltif edilib. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, "Qızıl qələm" və H.B.Zərdabi adına media mükafatları laureatıdır. Masallı Rayon Ağsaqqallar Şurasının sədri, tanınmış ictimai xadimdir.

Masallı Gənclər Evində el ağsaqqalının 80 illik yubileyi qeyd olunub. Yubiley tədbirində şəhid ailələrinin və rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar, mədəniyyət işçiləri iştirak ediblər.

Gənclər evinin foyesində Ələşrəf Niftiyevin müəllifi olduğu kitablar və qəzetlərdə haqqında dərc edilən yazılardan ibarət sərgi nümayiş olunub. Tədbirdə ümummilli lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Masallı Rayon Ağsaqqallar Şurasının sədr müavini, yazıçı-publisist Əyyub Mehtiyev yubilyarın həyat yolu barədə söhbət açıb. Ələşrəf müəllimin ictimai xadim olmaqla yanaşı, həm də məhsuldar ədib kimi tanındığını, 23 kitabın, yüzlərlə elmi-publisistik, pedaqoji və digər mövzularda məqalələrin, çoxlu tərcümələrin müəllifi olduğunu diqqətə çatdırıb.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov keçirilən tədbiri rayonun ictimai-mədəni həyatında əlamətdar hadisə kimi dəyərləndirərək Ələşrəf Niftiyevin dövlətə, dövlətçiliyə şərəflə, ləyaqətlə xidmət etdiyini, müstəqillik illərində feal ziyalı, vətəndaş mövqeyini nümayiş etdirdiyini bildirib. Yubilyarın keçdiyi ömür yolunun, zəngin həyat təcrübəsinin nəsillərə örnək olduğunu vurğulayaraq təqaüddə olan dövlət qulluqçusunun xalqımızın əbədiyaşar lideri Heydər Əliyevin ideyalarına daim sadiq olduğunu, işgüzar fəaliyyəti ilə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə layiqli töhfələr verdiyini söyləyib.

Yubiley mərasimində Respublika Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü, hüquq elmləri doktoru, professor, respublikanın əməkdar müəllimi İbrahim Quliyev bildirib ki, Ulu Öndər daim yaşlı nəslin nümayəndələrinə, ağsaqqallara dərin hörmət, ehtiram, yüksək diqqət və qayğı göstərib. Azərbaycan Prezidenti cənab İlham Əliyev Ümummilli Liderin ənənələrini uğurla davam etdirərək ağsaqqalların ölkəmizin ictimai-siyasi və mədəni həyatında rolunu yüksək dəyərləndirir. Ələşrəf müəllimin rəhbəri olduğu Masallı Rayon Ağsaqqallar Şurası respublika ağsaqqallarının qabaqcıl dəstələrindən biridir. Ə.Niftiyev ictimai-siyasi proseslərdə həmişə öndə olan, rayonun simasını təmsil edən qabaqcıl veteran, nüfuzlu ziyalıdır. Onun şərəfli ömür yolu, dövlətçilik sahəsində misilsiz xidmətləri nəsillərin yaddaşında həmişə qalacaqdır.

Rayon Ağsaqqallar Şurası idarə heyətinin üzvü, iki şəhid anası Ziba Əsgərova, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, ağsaqqal Əli Əlişov, respublikanın əməkdar jurnalisti, tərcüməçi Zakir Abbas, Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin sədri Qafar Cəfərli yubilyara səmimi ürək sözlərini, təbriklərini çatdırıblar.

Yubilyar çıxışında dövlət qurumlarında çalışdığı dövrdə ümummilli lider Heydər Əliyevin misilsiz qayğısını həmişə hiss etdiyini vurğulayaraq, 1993-cü ilin dekabr ayında Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində işləyərkən dahi rəhbərin onunla telefon söhbətini, qiymətli tövsiyə və tapşırıqlarını daim ehtiramla xatırladığını bildirib. Əməyini yüksək dəyərləndirdiyinə görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Mərasimdə Masallı Rayon İcra Hakimiyyəti, Respublika Ağsaqqallar Şurası, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı tərəfindən yubilyara Fəxri fərmanlar, hədiyyələr təqdim olunub.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**